# Kiçik çavuşun böyük hünəri

**Vətən müharibəsi şəhidi Nazir Xurşudov Xaçmaz rayonunun Çaykənarı kəndində anadan olub. Milli Qəhrəman Yavər Şahbazov adına tam orta məktəbi bitirən Nazir uşaqlıqdan idmana maraq göstərib. Əvvəlcə məşqçi Nurəddin Əhmədovun yanında şotakan-karate idman növünün sirlərinə yiyələnib. Sonra isə böyük qardaşı Maarifin təşəbbüsü və rəhbərliyi ilə karatenin vado-ryu növü ilə məşğul olub.**



Qardaşından bu idman növünün incəliklərini mənimsəyən Nazir müxtəlif illərdə respublika yarışlarında və zona birinciliklərində mükafatçılar sırasında yer alıb. O, orta məktəbi başa vurduqdan sonra hərbi xidmətə yollanıb. Əvvəlcə Murovda, daha sonra isə Gədəbəydə kəşfiyyat bölüyündə xidmət edib. Xidmətini başa vurduqdan sonra Vətənə olan sevgisi onu yenidən hərbiyə bağlayıb. Öz istəyi ilə müddətdən artıq hərbi xidmətə yazılan Nazir bir müddət Azərbaycan Sülhməramlı Qüvvələrində xidmət aparıb. Hərbidə çalışdığı müddətdə Əfqanıstan, Pakistan və Bolqarıstanda xüsusi kurslarda iştirak edib.

Hərbçi kimi bir sıra yarışlarda da ölkəmizi təmsil edib və mükafatçılar sırasında yer alıb. Bir müddətdən sonra ordudan tərxis olunsa da, Müdafiə Nazirliyinə ərizə yazaraq yenidən hərbi sahədə fəaliyyətini davam etdirib. O, bu dəfə kəşfiyyat bölüyündə xidmətə başlayıb. 35 illik ömrünün 11 ilini hərbidə keçirən Nazir bir sıra mühüm hərbi əməliyyatların da iştirakçısı olub. O, Vətən müharibəsinə qədər 2016-cı il şanlı Aprel və Tovuz döyüşlərində qəhrəmancasına döyüşüb. Daha sonra döyüş meydanına atılan igidimiz Ağdam, Füzuli, Cəbrayıl və Xocavənd rayonları uğrunda gedən hərbi əməliyyatlarda iştirak edib. 2020-ci oktyabrın 21-də Xocavənd istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub. Şəhidimiz oktyabrın 28-də doğulduğu Xaçmaz rayonunun Çaykənarı kəndində dəfn olunub.

Prezident İlham Əliyevin sərəncamları ilə Nazir Xurşudov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Qardaşı Maarif qürurla bildirir ki, müharibə başlayanda qardaşım Nazir mənə zəng edərək döyüşlərə yollandığını dedi. İmkan olduqca bizimlə əlaqə saxlayırdı. Hərbi əməliyyatlar başlayandan iki həftə sonra qardaşım Cəbrayıl istiqamətində gedən döyüşlərdə ağır yaralandı. Ermənilər onların olduğu ərazini minaatanla vurmuşdular. Bu hadisə zamanı Nazir bədəninin bir neçə nahiyəsindən qəlpə yaraları almışdı. Füzulinin Qaradağlı kəndindəki hospitalda müalicə alsa da, vəziyyəti ağır idi. Hətta həkimləri onu Bakıdakı xəstəxanalardan birinə yollayacaqları barədə məlumat vermişdilər. Lakin Nazir bir neçə gündən sonra bizə zəng edərək yenidən döyüş bölgəsinə qayıdacağını dedi. O, tezliklə Cəbrayıl rayonu istiqamətinə yollandı. Düzü, Nazirin tam sağalmadan yenidən döyüşlərə yollanmasına hər birimiz etiraz etdik. Qalıb müalicəsini davam etdirməsini istəyirdik. Amma o bizə dedi ki, cəbhədə mənim qardaşlarım döyüşür və mən onların yanında olmalıyam, haqqınızı halal edin. Döyüşlərə yenidən yollandıqdan sonra onunla hər gün telefonda danışırdıq. Oktyabrın 17-si qardaşımla sonuncu danışığımız oldu. Bir daha ondan xəbər gəlmədi. Ona 3 gün zəng çatmadığı üçün artıq hər birimiz narahatlıq keçirirdik. Oktyabrın 22-də Nazirin komandiri anama zəng edərək onun şəhid olması barədə xəbər verdi. Düzü, əvvəl heç birimiz buna inanmırdıq. Dərhal onun kəndimizdən olan əsgərinə zəng etdim. Lakin onunla da əlaqə saxlaya bilmədim. Sonra bir neçə yerlə xəbəri dəqiqləşdirməyə çalışdım. Bir neçə günlük axtarışdan sonra qardaşım Eldarla birgə Füzuliyə yollandım. Onu snayperlə vurmuşdular. Naziri vuran snayper muzdlu döyüşçü olub.

Döyüşçü yoldaşlarının dediyinə görə, Xocavənddə təpədə ermənilərin postu var idi. Nazir qumbaraatanla ermənilərin postunu vurduqdan sonra şəhid olan əsgər yoldaşının avtomatını götürərək atəş açıb və irəli gedib. Yanında olan hərbçi yoldaşları ilə birgə qəhrəmancasına döyüşərək həmin postu ermənilərdən azad ediblər.

Onun böyük arzuları var idi. Torpaqlarımızın düşməndən azad olmasına çox inanırdı. O, torpaqlarımızın bütövlüyü uğrunda şəhid oldu. Amma inanıram ki, qardaşımın ruhu şaddır. Nazir şəhid olmazdan əvvəl anamla danışanda demişdi ki, ana, mən şəhid olsam ağlama, məndən başqa iki oğlun da var. Təbii ki, biz ümid edirdik ki, o müharibədən sağ-salamat yenidən ailəsinin, uşaqlarının yanına qayıdacaq. Amma... Şəhidin Şahin və Asiman adlı iki oğlu yadigar qalıb.



*Müşfiq MİRZƏ*
*XQ*

Xalq qəzeti .- 2025.- 28 oktyabr (№230).- S.10.